**Hörmətli qrant iddiaçıları!**

**"Elm-Təhsil-Sənaye" məqsədli qrant müsabiqəsi** üzrə 2020-ci ildə aşağıda göstərilən tarix və saatlarda **məsləhət vebinarları** keçiriləcəkdir. Vebinarların keçirilməsində məqsəd qrant iddiaçılarına müsabiqəyə təqdim olunacaq layihələrin tərtibatı, həmçinin **e-QRANT** sistemindən və **ASAN-imzadan** istifadə üzrə məsləhətlərin verilməsi, ortaya çıxan sualların cavablandırılmasıdır.

**Seminar cədvəli**

| **№** | **TARİX** | **SAAT** |
|---|---|---|
| 1-ci seminar | 10 avqust | 11.00 |
| 2-ci seminar | 17 avqust | 15.00 |
| 3-cü seminar | 24 avqust | 11.00 |
| 4-cü seminar | 31 avqust | 15.00 |

Vebinarlar Elmin İnkişafı Fondunun əməkdaşları tərəfindən **Zoom Cloud Meetings** proqramı vasitəsi ilə keçiriləcəkdir. İştirak etmək istəyənlər **(012) 489 08 94** nömrəli telefona zəng vurmaqla və ya **info@elmfondu.az** elektron poçt ünvanına məktub yazmaqla qeydiyyatdan keçə bilərlər. **Zoom Cloud Meetings** proqramında vebinarlara qoşulmaq üçün tətbiqetməni mobil cihazınıza və ya kompüterinizə yükləməkdən sonra, elektron poçt ünvanına göndərilən linkə daxil olmaqla qoşulmaq kifayətdir. Vebinarlarda iştirak üçün qeydiyyatdan keçmiş, lakin vebinarda iştirak etməyən iddiaçılar növbəti seminara yalnız yer olduğu təqdirdə buraxılacaqlar; xahiş olunur nəzərə alasınız ki, vebinarda iştirak etməməklə başqa potensial iddiaçının iştirakını məhdudlaşdırırsınız.

**Elmin İnkişafı Fondunun icraçı direksiyası**